"Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə qaytarılması" proqramı çərçivəsində təşkil olunan düşərgədə Goranboy rayonunun Qurbanzadə, Qarasuçu, Faxralı, Qaramusalı, Eyvazlılar və Samux rayonunun Seyidlər, Lək, Əlibayramlı kənd orta məktəblərindən 30 şagird iştirak edib.

Düşərgənin təşkilində məqsəd ceyranların reintroduksiya edildiyi ərazilərdə yaşayan gənc nəsli bu növ barədə maarifləndirməkdən ibarətdir.

Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin əməkdaşları düşərgədə məktəblilər üçün ekoloji maarifləndirmə proqramı üzrə seminar, müsabiqə, ekoloji oyun və tədqiqatlar keçiriblər. Məktəblilərə ceyranların Azərbaycanda məskunlaşdığı tarixi ərazilər, növün həyat tərzi, təbiətdə rolu, tükənmə səbəbləri və qorunması haqqında ətraflı məlumat verilib.

Düşərgə iştirakçıları Gümrük çayında hidrobioloji tədqiqatlar aparıb, bioloji müxtəlifliyə aid viktorinada və "Ceyran – təbiətin bəzəyidir" adlı rəsm müsabiqəsində bilik və bacarıqlarını nümayiş etdiriblər.

Yekunda düşərgə iştirakçılarına və müsabiqə qaliblərinə Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin, IDEA İctimai Birliyinin və Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyinin diplomları təqdim olunub.